***Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurasının***
***19 iyul 2016-cı il tarixdə keçirilmiş iclasın protokolundan çıxarış***

*19 iyul 2016-cı il tarixdə Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurasının sədri Rauf Pənahovun sədrliyi ilə iclas keçirilmişdir.*

*İclasda Apellyasiya Şurasının üzvləri Rasim Quliyev, Zülfəli İsmayılov, Namiq Məmmədov, Akif Abdullayev, Katibliyin rəhbəri Zaur Ramazanov və Katibliyin üzvləri Kamilə Ağalarova, Ağası Lətifov, İlqar Əliyev, Ramil Qədimquliyev və Günel Məmmədova iştirak edirdilər.*

***<u>İclasda baxılmış və müzakirə olunmuş məsələlər:</u>***

*1. "Aydınlıq-R" şirkətinin təsisçisi, həm də sahibkarı Rauf Məmmədzadənin Apellyasiya Şurasına müraciəti;*

*2. Vətəndaş Tahir Qocayevin Apellyasiya Şurasına müraciəti;*

*3. "R.A.N." kiçik müəssisəsinin direktoru Asif Ağayevin Apellyasiya Şurasına müraciəti;*

*4. "İlan zəhəri" MMC-nin təsisçisi Qəzənfər Mehdiyevin Apellyasiya Şurasına müraciəti;*

*5. "Siqma" kiçik müəssisəsinin hüquqlarını təmsil edən Fərid Məmmədzadənin Apellyasiya Şurasına müraciəti və bununla bağlı Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasının 12.07.2016-cı il tarixli, 8 nömrəli Qərarı haqqında.*

***Bu məsələlərlə bağlı ətraflı müzakirələr aparılmış, çıxışlar dinlənilmiş və yekunda <u>qərara alındı:</u>***

*1. "Aydınlıq-R" şirkətinə ödənilən kompensasiya haqqında məlumatı əldə etmək üçün Bakı şəhəri, Nərimanov Rayon İcra Hakimiyyətinə və "Azəravtoyol" ASC-yə Apellyasiya Şurasından sorğu məktubları göndərilsin.*

*2. Memarlıq və Şəhərsalma Baş İdarəsinin rəis əvəzi, baş memar A.Abdullayevə vətəndaş Tahir Qocayevə məxsus Xətai rayonu, Xəqani Rüstəmov küçəsindəki (12-ci Qara şəhər küçəsi) torpaq sahəsinin qonşuluğundakı ərazilərdə sahibkarlar tərəfindən gələcəkdə həmin ərazidə tikinti işləri aparılarkən, tikintinin mövcud qanunvericiliyə uyğun olmasına ciddi fikir verilməsi tapşırılsın.*

*3. "Bakı Ağ Şəhər" Layihə rəhbərliyinə müraciət edərək, "R.A.N" kiçik müəssisəsinə sorğu göndərib, lazımi sənədlər alınsın. Əgər sahibkara həqiqətən kompensasiya ödənilməyibsə, ondan alınan torpağın müqabilində Bakı şəhərinin Qaradağ və ya digər rayonu ərazisində torpaq sahəsi verməklə əvəzləndirmə aparılsın.*

*4. "İlan zəhəri" MMC-nin təsisçisi vətəndaş Qəzənfər Mehdiyevə Bakı şəhəri ərazisində belə bir müəssisənin yaradılması üçün münasib yer və şəraitin olmadığı çatdırılsın. Ona, Səhiyyə Nazirliyindən müvafiq lisenziyanın alınması, həmçinin Səhiyyə Nazirliyinə və Azərbaycan Respublikası Elmlər Akademiyasının Zoologiya İnstitutuna müraciət edilməsi, bu işin təşkili uçun həmin qurumlarda məsləhətləşmənin aparılması, onlardan bu məsələyə rəylərin alınması tövsiyə edilsin.*

*5. "Siqma" kiçik müəssisəsinin hüquqlarını təmsil edən vətəndaş Fərid Məmmədzadənin müraciəti təmin edilməsin. Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurasının bu məsələ ilə bağlı izahlı məktubu vətəndaş Fərid Məmmədzadəyə göndərilsin.*

*6. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun tələblərini pozduğuna görə, Bakı Şəhər İcra Hakimiyyəti Memarlıq və Şəhərsalma Baş İdarəsinin Şəhər ərazisinin tikinti-planlaşdırma idarəsinin baş mütəxəssisi Məhi Həsən oğlu Tağıyevə töhmət verilsin. Gələcəkdə bir daha belə hallara yol verilməməsi Bakı Şəhər İcra Hakimiyyəti Memarlıq və Şəhərsalma Baş İdarəsinin rəis əvəzi Akif Abdullayevin nəzərinə çatdırılsın.*